**Azərbaycan Respublikası**
**Energetika nazirinin**
**“09” iyul 2020-ci il tarixli**
**F-79 nömrəli Əmri ilə**
**təsdiq olunmuşdur**

**7 nömrəli Əlavə**

# ENERJİ MƏSƏLƏLƏRİNİ TƏNZİMLƏMƏ AGENTLİYİNİN MİNGƏÇEVİR FİLİALININ

# ƏSASNAMƏSİ

## Ümumi müddəalar

1.1 Enerji Məsələlərini Tənzimləmə Agentliyinin (bundan sonra – **Agentlik**) Mingəçevir filialı (bundan sonra – **Filial**) Azərbaycan Respublikasında elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahələrində (bundan sonra – **müvafiq sahə**) bu Əsasnamənin 1.7-cı bəndində qeyd olunmuş ərazidə (bundan sonra – **fəaliyyət ərazisi**) fəaliyyət göstərən istehsalçılar, ötürücülər (təbii qazı nəql edənlər), paylayıcılar, təchizatçılar və istehlakçılar arasında münasibətlərin tənzimlənməsini, müəssisələrin fəaliyyətinin təhlilini, restrukturizasiya tədbirləri ilə bağlı təkliflər verilməsini, mühəndis-kommunikasiya təminatı sistemlərinə və xidmətlərin keyfiyyətinə dair tələblərə əməl edilməsinə nəzarətin təşkilini həyata keçirən, hüquqi şəxsin (Agentliyin) olduğu yerdən kənarda yerləşən və onun funksiyalarının hamısını və ya bir hissəsini, o cümlədən nümayəndəlik funksiyalarını həyata keçirən ayrıca bölməsidir.

1.2 Bu Əsasnamə ilə Filialın fəaliyyətinin məqsəd və istiqamətləri, vəzifələri, hüquqları və idarə olunması ilə bağlı digər münasibətlər tənzimlənir.

1.3 Filial öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin (bundan sonra – **Nazirlər Kabineti**) qərar və sərəncamlarını, Azərbaycan Respublikası Energetika Nazirliyi (bundan sonra – **Nazirlik**) Kollegiyasının qərarlarını, Azərbaycan Respublikası Energetika nazirinin əmr və sərəncamlarını, “Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Nizamnaməsi”ni, Agentliyin İdarə Heyətinin (bundan sonra – **AİH**) qərarlarını, AİH sədrinin əmr və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.4 Filial hüquqi şəxs deyildir və Nazirliyin təsdiq etdiyi bu Əsasnamə üzrə fəaliyyət göstərir.

1.5 Filial Mingəçevir şəhəri, AzDRES qəsəbəsi, Naxçıvan küçəsi 48 ünvanında yerləşir.

1.6 Filial Agentliyin Yevlax Şəhər Regional Bölməsinin və Yevlax filialının hüquqi varisidir.

1.7 Filialın fəaliyyət ərazisinə aiddir: Mingəçevir və Yevlax şəhərləri, Ağdam, Ağdərə, Bərdə, Tərtər və Ağdaş rayonları.[iii]

## 2. Filialın fəaliyyətinin məqsədi və fəaliyyət istiqamətləri

2.1. Filialın fəaliyyətinin məqsədi fəaliyyət ərazisində müvafiq sahənin səmərəli işini və şəffaflığını təmin etmək, göstərilən xidmətləri bazar iqtisadiyyatının tələblərinə

uyğunlaşdırmaq, habelə sözügedən xidmətlərin sahibkarlar üçün əlçatanlığını təmin etməkdir.

2.2. Filial aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.2.1. fəaliyyət ərazisində qüvvədə olan qanunvericiliyə, o cümlədən istehlakçıların hüquqlarının müdafiəsi haqqında qanunvericiliyə müvafiq sahədə əməl edilməsinə nəzarəti həyata keçirir;

2.2.2. müvafiq sahədə fəaliyyət göstərən müəssisələr tərəfindən enerji resurslarından səmərəli istifadənin təmin edilməsinə, habelə energetika sahəsində fəaliyyətin ətraf mühitə mənfi təsirinin qarşısının alınması və ya azaldılması üzrə müvafiq normalara uyğun tədbirlər görülməsinə nəzarəti həyata keçirir;

2.2.3. fəaliyyət ərazisində müvafiq sahədə istehsalçılar, təchizatçılar, ötürücülər, nəql edicilər, paylayıcılar və istehlakçılar arasında mübahisələrə baxır;

2.2.4. “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda və qaydada müvafiq sahədə yoxlamalar aparır;

2.2.5. Fəaliyyət ərazisində müvafiq sahədə sağlam rəqabət mühitinin yaradılması və enerji istehsalının səmərəliliyinin artırılması üçün tədbirlər görür.

## 3. Filialın vəzifələri və hüquqları

3.1. Bu Əsasnamənin 2.2-ci bəndi ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Filialın vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahədə fəaliyyət ərazisində inzibati xəta əlamətləri aşkar etdikdə Nazirliyin müəyyən etdiyi bölgüyə əsasən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrində nəzərdə tutulmuş, Agentliyin səlahiyyətlərinə aid edilmiş inzibati xəta haqqında işlərə baxmaq, o cümlədən inzibati xəta haqqında iş üzrə qərar qəbul etmək, cinayət əlamətləri olduqda isə Agentliyin Enerji tənzimləmə və monitorinq departamentinə (bundan sonra – **TMD**) məlumat vermək;

3.1.2. müvafiq sahədə elektron xidmətləri “Dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.3. Filialın fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə “Vətəndaşların müraciətləri haqqında”, “İnzibati icraat haqqında” və “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək, Agentliyin digər struktur bölmələrinin fəaliyyəti ilə bağlı daxil olan müraciətləri isə aidiyyəti üzrə göndərmək, o cümlədən fəaliyyət ərazisində istehlakçıların energetika subyektlərinin qərarlarından, hərəkət və ya hərəkətsizliyindən verilmiş şikayətlərini araşdırmaq, nəticələri barədə TMD-yə məruzə etmək və TMD-nin həmin məsələlər üzrə tapşırıqlarını icra etmək;

3.1.4. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, o cümlədən qəbul günlərini təyin etmək,

3.1.5. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılması, malik olduğu və siyahısı “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın müvafiq internet resursunda yerləşdirilməsi və bu informasiyanın daim yenilənməsi üçün müvafiq məlumatları TMD-yə təqdim etmək;

3.1.6. dövlət və kommersiya sirrinin, eləcə də məxfilik rejiminin qorunması üçün tədbirlər görmək, habelə gizliliyi qorunan digər məlumatları qorumaq, konfidensiallıq (gizlilik) rejiminə əməl etmək;

3.1.7. Filialın fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.8. “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda və qaydada fəaliyyət ərazisində yoxlamalar aparmaq;

3.1.9. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, TMD ilə razılaşdıraraq fəaliyyət ərazisində sənaye qaz qurğusunun istismarına icazə, habelə 200 kVt güc həddindən yuxarı elektrik qurğuları üçün fəaliyyət ərazisində istismara buraxılış aktı vermək və belə hallara münasibətdə həmin Qanunun 6.3-cü maddəsində nəzərdə tutulmuş icazə verən orqanın səlahiyyətlərini fəaliyyət ərazisində Agentlik adından həyata keçirmək;

3.1.10. müvafiq sahədə fəaliyyət göstərən müəssisələr tərəfindən texniki şərtlərin qanunvericiliyə uyğun verilməsinə nəzarət etmək;

3.1.11. müvafiq sahədə fəaliyyət ərazisindəki istehlakçılara keyfiyyətli və səmərəli xidmət göstərilməsinin təmin edilməsi üçün TMD tərəfindən Filiala verilmiş tapşırıqları icra etmək;

3.1.12. müvafiq sahədə fəaliyyət ərazisindəki istehlakçıların hüquqlarının müdafiəsi haqqında qanunvericiliyə Agentlik adından nəzarəti həyata keçirmək, bu sahədə qanun pozuntularının qarşısının alınması və pozuntuya yol vermiş şəxslərin qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilməsi məqsədi ilə TMD tərəfindən Filiala verilmiş tapşırıqları icra etmək, habelə istehlakçıların hüquqlarının və qanuni mənafelərinin pozulmasına gətirib çıxaran və ya gətirib çıxara bilən hərəkətlərin qarşısının alınması üçün tədbirlərin hazırlanmasında iştirak etmək və TMD tərəfindən Filiala verilmiş tapşırıqlar çərçivəsində həyata keçirmək;

3.1.13. fəaliyyət ərazisində enerji təchizatı və qazpaylayıcı şəbəkələrdə, habelə enerji və qaz verilməsində, qurğularda, avadanlıqlarda baş vermiş hadisələrin, yaxud istismar olunan avadanlığın sıradan çıxması hallarının qeydiyyatını aparmaq, onların baş vermə səbəblərini araşdırmaq, eləcə də belə hadisələrin və halların qarşısının alınması üçün təşkilati-texniki tədbirlərin layihələrinin hazırlanmasında və onların yerinə yetirilməsinə nəzarətin həyata keçirilməsində AİH və TMD tərəfindən müəyyən etdiyi çərçivədə iştirak etmək;

3.1.14. istehsalçılar, ötürücülər (təbii qazı nəql edənlər), paylayıcılar və təchizatçıların və istehlakçıların fəaliyyət ərazisində yeni və ya yenidən qurulan, icazə verilmiş gücü artırılan, enerji təchizatı sxemi dəyişən elektrik

və istilik qurğularının enerji təchizatı layihələrinə Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş qaydada rəy vermək;

3.1.15. Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş qaydada fəaliyyət ərazisində tikintisi başa çatdırılmış sənaye qaz qurğularının istismara qəbulunda və qaz şəbəkəsinə qoşulmasında, habelə sənaye qaz qurğusu olan istehlakçıların qaz sayğaclarının dəyişdirilməsində TMD ilə razılaşdırılan çərçivədə iştirak etmək;

3.1.16. qanunla müəyyən edilmiş hallarda və qaydada istehlakçılara fəaliyyət ərazisində elektrik, istilik enerjisi və qaz verilməsinin dayandırılması barədə icrası məcburi göstəriş vermək;

3.1.16-1. müayinə və texniki xidmət məlumatları üzrə reyestrə daxil edilmiş məlumatlar əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada monitorinq keçirmək, müayinə və texniki xidmətlə bağlı qanunla müəyyən edilmiş tələblərə riayət edilmədiyini aşkar etdikdə, icrası məcburi olan göstərişlər vermək;[iii]

3.1.17. Filialda kargüzarlığı normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, müvafiq sahəyə dair peşəkar tövsiyələrin və rəylərin hazırlanmasında iştirak etmək;

3.1.18. Filiala həvalə olunmuş əmlakdan təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.19. Filialın fəaliyyəti ilə bağlı hesabatları və tədbirlər planını TMD-yə təqdim etmək;

3.1.20. bu Əsasnamədə müəyyən edilmiş vəzifələrin həyata keçirilməsi ilə bağlı fəaliyyət ərazisində istehsalçılar, ötürücülər (təbii qazı nəql edənlər), paylayıcılar və təchizatçılara və istehlakçılara icrası məcburi göstərişlər vermək;

3.1.21. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Filialın aşağıdakı hüquqları vardır:

3.2.1. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq;

3.2.2. AİH sədrinin razılığı ilə dövlət qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.3. Filial əməkdaşlarının əlavə təhsili, yenidən hazırlanması və peşəkarlığının yüksəldilməsi barədə TMD və AİH qarşısında məsələ qaldırmaq;

3.2.4. fəaliyyət istiqamətləri üzrə digər məsələlərə dair rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq.

## 4. Filialın idarə olunması

4.1. Filial onun rəisi tərəfindən Agentliyin verdiyi etibarnamə əsasında idarə edilir. Filialın rəisi öz fəaliyyətində TMD-yə tabedir. Filial rəisini Nazirliyin razılığı ilə AİH sədri vəzifəyə təyin və vəzifədən azad edir.

4.2. Filial rəisi:

4.2.1. Filialın fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

4.2.2. TMD ilə razılaşdıraraq dövlət hakimiyyəti, məhkəmə, prokurorluq, yerli özünüidarəetmə orqanlarında, həmçinin idarə, müəssisə və təşkilatlarda

Filialı təmsil edir, eləcə də həmin qurumlarla xidməti yazışmalar aparır, Filial tərəfindən göndərilən sənədləri imzalayır və onları möhürlə təsdiq edir;

4.2.3. TMD ilə razılaşdıraraq, fəaliyyət ərazisində 200 kVt güc həddindən yuxarı elektrik qurğularının istismara buraxılış aktını imzalayır;

4.2.4. TMD ilə razılaşdıraraq, fəaliyyət ərazisində sənaye qaz qurğusunun istismarına icazəni imzalayır;

4.2.5. TMD ilə razılaşdıraraq, fəaliyyət ərazisində müvafiq sahədə fəaliyyət göstərən istehsalçılara, ötürücülərə (təbii qazı nəql edənə), paylayıcılara, təchizatçılara və istehlakçılara icrası məcburi olan göstərişlər verir;

4.2.5-1. Agentliyin səlahiyyətlərinə aid edilmiş inzibati xəta haqqında işlərə baxır, o cümlədən inzibati xəta haqqında iş üzrə qərar qəbul edir;

4.2.6. Filialı Agentlik daxilində təmsil edir;

4.2.7. Filiala aid məlumatlar (sənədlər) barədə hüquqi və fiziki şəxslərə sorğu verir, onlardan məlumatlar (sənədlər) alır;

4.2.8. Filialın əməkdaşları arasında vəzifə və iş bölgüsü aparır;

4.2.9. Filialın fəaliyyəti ilə bağlı Filialın əməkdaşlarına etibarnamə verir;

4.2.10. Filialdaxili əmr və sərəncamlar verir;

4.2.11. bütün Filial əməkdaşları tərəfindən vəzifələrinin icrasına nəzarət edir;

4.2.12. Filial əməkdaşlarının həvəsləndirilməsi və ya tənbeh edilməsi barədə AİH sədrinə təqdimat verir;

4.2.13. Filial əməkdaşlarına verilən göstərişlərin uğurlu icrası üçün lazımi şəraiti yaradır;

4.2.14. Filiala verilən göstərişlərin icrası məqsədi ilə Filial daxilində işçi qrupları yaradır;

4.2.15. Filialda kargüzarlığı, vətəndaşların qəbulunu, onların müraciətlərinə baxmanı normativ hüquqi aktların tələblərinə uyğun təşkil edir;

4.2.16. daxili qaydalarla nəzərdə tutulmuş digər vəzifələri icra edir.

4.3. ləğv edilmişdir.

4.4. ləğv edilmişdir.

4.5. Filialın rəisi və digər əməkdaşları intizam məsuliyyətinə AİH sədri tərəfindən cəlb edilə bilərlər.

## ƏSASNAMƏYƏ EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

Energetika Nazirliyinin 30.03.2021-ci il tarixli F-28 nömrəli Əmrinin 1.3-cü bəndi;

Energetika Nazirliyinin 29.04.2022-ci il tarixli F-46 nömrəli Əmrinin 7-ci hissəsi;

Energetika Nazirliyinin 08.04.2024-cü il tarixli 3-15/3-2-175/2024 nömrəli Əmri;

Energetika Nazirliyinin 13.08.2024-ci il tarixli 3-15/3-2-522/2024 nömrəli Əmrinin 7-ci hissəsi.